**AZƏRBAYCAN RESPUBLİKASININ**
**ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ**

AZ1025, Bakı şəh., Yusif Səfərov küç., 20. Tel.: (+994 12) 490 24 08; faks: (+994 12) 490 33 59, e-mail: office@emdk.gov.az

№ 1101209 06 064 «11» iyul 2011 il

**Almaniya Federativ Respublikası,**
**Vetzlar şəhəri, Kalsmunt küçəsi, 16**
**ünvanında yaşayan Emma Şirinovaya**

Bakı şəhəri, Azadlıq prospekti 146/148 ünvanında yerləşən binanın sökülməsi ilə əlaqədar, Nərimanov rayonu, Ə.Əliyev küçəsi 26 ünvanında inşa edilmiş binada mənzilin ayrılmasına narazılıq edilməsi barədə müraciətinizə Əmlak Məsələləri Dövlət Komitəsində baxılmışdır.

Bununla əlaqədar bildiririk ki, köçürmə ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinin və Əmlak Məsələləri Dövlət Komitəsinin nümayəndələrindən ibarət yaradılmış komissiyanın verdiyi məlumatlara görə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin həmin binaların qəzalı vəziyyətdə olmasına dair rəyinə əsasən Bakı şəhəri, Azadlıq prospekti, 154, 146/148 və 150/152 ünvanlarında yerləşən yüksək mərtəbəli binalarda yaşayan sakinlərin və obyektlərin köçürülməsi işi həyata keçirilir.

Həmin ünvanlarda yaşayan sakinlərin mənzillərinin əvəzində Bakı şəhəri ərazisində müasir üslubda inşa edilmiş yaşayış binalarında mənzillərin mövcud sahəsindən iki dəfəyədək artıq sahə olaraq yeni mənzillər tam təmir olunmaq şərti ilə təklif edilir.

Qeyd olunanları nəzərə alaraq, müraciətdə göstərilən ünvan və ətraf ərazilərdə yerləşən yaşayış binalarının sakinlərinin köçürülməsi üzrə yaradılan Komissiyaya müraciət etməyiniz məqsədəuyğundur.

**Hörmətlə,**

**Sədr müavini** **Rüstəm Şahbazov**